**Faiq Xanoğlan oğlu KƏRİMLİ,**
Bakı Dövlət Universitetinin "İqtisadiyyat" kafedrasının doktorantı,
AZ1148, Azərbaycan Respublikası, Bakı, Akademik Zahid Xəlilov küçəsi, 23.
E-mail: karimli.faig@gmail.com

# AZƏRBAYCANDA NEFTKİMYA SƏNAYESİNİN İDARƏETMƏ SİSTEMİNİN TƏKMİLLƏŞDİRİLMƏSİNİN STRATEJİ ASPEKTLƏRİ

**Xülasə**

*Tədqiqatın məqsədi* Azərbaycanda neftkimya sənayesinin idarəetmə sisteminin təkmilləşdirilməsinin strateji aspektlərinin müəyyənləşdirilməsidir. Bunun üçün neftkimya sənayesinin inkişaf imkanları araşdırılmış və idarəetmə sisteminin mövcud vəziyyəti baxılmışdır. Neftkimya sənayesinin müasir dövrün tələblərinə uyğun şəkildə təkmilləşdirilməsi və idarəetmə sisteminin səmərəliliyinin artırılması problemləri baxılmışdır. Əlavə dəyər yaradılmasında və məhsul istehsalının artırılmasında neftkimya sənayesinin potensialı ön plana çıxarılmışdır. Yeni çağırışlar şəraitində Azərbaycanda neftkimya sənayesinin mövcud idarəetmə sisteminin tənzimlənməsi və təkmilləşdirilməsi üzrə tövsiyələr hazırlanmış və təkliflər verilmişdir.

*Tədqiqatın metodu* formasında bir qrup elmi metodlardan analiz, sintez, statistika və ümumiləşdirmə metodlarından istifadə edilmişdir. Eyni zamanda, neftkimya sənayesinin idarəetmə problemlərinə dair araşdırmaları olan tədqiqatçıların elmi əsərlərinə müraciət olunmuşdur.

*Tədqiqatın nəticələri* hazırkı dövrdə Azərbaycanda neftkimya sənayesinin inkişafının intensivləşdirilməsi və müasir idarəetmə sisteminin formalaşdırılması məqsədilə mexanizmlərin hazırlanmasında fayda verə bilər.

**Açar sözlər**: Azərbaycan, neftkimya sənayesi, idarəetmə, idarəetmə sistemi, idarəetmə mexanizmləri, neftkimya sənayesinin inkişaf potensialı.

**UOT:** 338.2:338.24
**JEL:** L5; L52; O25; M12
**DOI:** https://doi.org/10.54414/ZQJO9117

## Giriş

İdarəetmə öz inkişafında çoxminillik bir yol keçmiş və bu yolda onun mahiyyəti, istifadə olunan metodlar haqqında nəzəri baxışlar dərinləşmişdir. Müasir idarəetmənin əsasları XX əvvəllərində qoyulmuşdur ki, onun əsas məqsədi işçilərin öz vəzifələrini əlaqələndirilmiş, bacarıqla və səmərəli şəkildə yerinə yetirmələrini təmin etməklə səmərəliliyin artırılması problemini həll etmək idi. XX əsrin ortalarından həm idarəetmə nəzəriyyəsində, həm də sənaye komplekslərində əhəmiyyətli artım prosesi aktivləşir, bunun nəticəsində həmin komplekslərin idarə olunmasını təmin etmək üçün idarəetmə elminə digər elm sahələrindən (sosiologiya, psixologiya, statistika, riyaziyyat və s.) nəzəriyyələr daxil edilir. Hal-hazırda idarəetməyə dair nəzəri baxışlar ictimai-siyasi və sosial-iqtisadi şəraitdə baş verən davamlı dəyişikliklərin təsirinə məruz qalır [1, s.157]. Müasir idarəetmə elmi bütün idarəetmə nəzəriyyələrinin sintezidir. Onun əsas məqsədi sürətlə dəyişən mühitdə effektiv idarəetmə sistemlərinin seçilməsi üçün yaradıcı, dinamik və adaptiv baza yaratmaqdır. Bu sistemlərin davamlı və səmərəli işləməsini təmin etmək məqsədilə təkcə müasir idarəetmə təfəkkürü və idarəetmə təşkilatı deyil, həm də müəssisələrin formalaşması və fəaliyyəti üçün yeni mexanizmlər və idarəetmə vasitələri tələb olunur.

Müasir iqtisadi şəraitdə müəssisələrin idarəetmə sistemlərində problemlərin sayı getdikcə artır ki, bu da həmin sistemlərdə idarəetmə mexanizminin daha da təkmilləşdirilməsini zəruri edir. Bu, ilk öncə, xarici və daxili mühitdə daimi dəyişikliklər şəraitində müəssisənin idarəetmə mexanizminin formalaşması və inkişafının nəzəri əsaslarının öyrənilməsini nəzərdə tutur. Müəssisənin idarə edilməsi müasir

idarəetmə biliklərini, habelə idarəetmə proseslərinin effektivliyini başa düşməyi tələb edir [2, s.137].

**Neftkimya sənayesinin idarəetmə sisteminin təkmilləşdirilməsinin müasir problemlərinin tədqiqi**

Müasir sənaye müəssisəsi mürəkkəb dinamik bir sistemdir və onun idarə edilməsi uzun və çox zəhmətli bir prosesdir, menecerlərdən xüsusi idarəetmə bacarıqları tələb edir, habelə idarəetmə sistemini nəzarətin vəziyyəti haqqında məlumatla təmin edir. Mövcud idarəetmə sistemi müəssisələrin daxili və xarici mühitlə qarşılıqlı əlaqəsinin xarakterini müəyyənləşdirir. Xüsusilə, iqtisadiyyatın hər hansı bir sahəsinin səmərəliliyinin artırılmasımda idarəetmə sisteminin təkmilliyi strateji əhəmiyyət kəsb edir [3]. Müəssisənin idarəetmə sistemi onun bütün xidmətləri, alt sistemləri və onlar arasındakı kommunikasiyalar, habelə müəyyən edilmiş fəaliyyəti təmin edən proseslər kompleksindən ibarətdir. İstənilən təşkilatın idarə edilməsi, planlaşdırılan məqsədlərə nail olmaq baxımından ən yaxşı nəticələr əldə etmək üçün işçilərin, onların qruplarının və ya bütövlükdə təşkilatın fəaliyyətinə təsir göstərən davamlı bir prosesdir. İdarəetmə prosesləri əlaqələndirilmiş hərəkətləri təmin edir ki, bu da öz növbəsində təşkilatların qarşısında duran ümumi məqsəd və ya məqsədlər toplusunun reallaşdırılmasının son nəticəsini təmin edir. Fəaliyyətləri əlaqələndirmək üçün idarəetmə funksiyalarını reallaşdıran xüsusi orqanlar olmalıdır. Buna görə də təşkilatlarda idarə edən və idarə olunan hissələr fərqləndirilir [4, s.120].

İdarəetmə sisteminin səmərəliliyi taktiki və strateji ola bilər. İdarəetmə sisteminin taktiki səmərəliliyi yaxın gələcəkdəki, strateji səmərəlilik isə gələcəkdəki təsiri əks etdirir. Yüksək səmərəliliyinin əldə edilməsində idarəetmə sisteminin, mexanizminin və prosesinin (texnologiyasının) xüsusiyyətləri önəmli rol oynayır. Bununla belə, idarəetmənin sisteminin səmərəliliyi həmişə dəyişkəndir və müxtəlif amillərlə - iqtisadiyyatın vəziyyəti, rəqabət, ictimai-siyasi vəziyyət və s. ilə müəyyənləşdirilir [5, s.85]. İdarəetmə sisteminin səmərəliliyinin funksional rolu onun inkişaf səviyyəsini və dinamikasını, bu prosesin keyfiyyət və kəmiyyət tərəflərini əks etdirməkdən ibarətdir. Odur ki, səmərəliliyi potensial və real olaraq ayırd etmək olar. Potensial səmərəlilik ilkin olaraq qiymətləndirilir, real olan isə təcrübədə əldə edilən nəticələrlə müəyyənləşdirilir.

Ümumiyyətlə, istənilən müəssisənin məqsədi böyümək, inkişaf etdirmək və iqtisadi nəticələrini maksimuma çatdırmaqdır. Bu, idarəetmə sisteminin səmərəliliyinin daim təkmilləşdirilməsini tələb edir. İdarəetmə sisteminin keyfiyyətinə obyektiv və subyektiv amillər çox təsir edir. Ən vaciblərindən biri düzgün qurulmuş struktur və əmək bölgüsü, bütün zəruri resursların və müasir texnologiyaların olmasıdır. İdarəetmə sisteminin səmərəliliyinə işçi heyətinin işə, menecerə və təşkilata münasibəti təsir göstərir. Dünyada analoji işlək idarəetmə mexanizmləri və sistemləri özlərini daha avtonom və sərbəst istisadi mexanizmlərdən ibarət fəaliyyət məkanlarında qabarıq büruzə vermişdir [6].

Neft-kimya sənayesinin inkişafı onun idarəetmə sistemindən xeyli dərəcədə asılıdır. Odur ki, bu sektorda idarəetmə sisteminin təkmilləşdirilməsi tələb olunur. Bunun üçün ilk öncə, həmin sənayedə idarəetmə heyətinin strukturu optimallaşdırılmalıdır. İdarəetmə heyətinin strukturunun təşkili elə optimallaşdırılmalıdır ki, gələcəkdə normal fəaliyyət göstərə bilsin. Ümumiyyətlə, kadrların səmərəli idarə edilməsi onların real iqtisadiyyatın sektorları və regionları arasında bölüşdürülməsi və istifadəsini, həmin sektorlarda işçi qüvvəsinə olan tələbatın müəyyənləşdirilməsi, əhalinin məşğulluğunun təmin edilməsi üzrə tədbirlərin görülməsini özündə əks etdirir. Təkcə neft-kimya deyil, bütün sənaye sahələrinin iqtisadi səmərəliliyi onlarda işləyən fəhlə və qulluqçuların idarə edilməsinin səmərəliliyindən asılıdır. Məhz buna görə də sənaye müəssisələrində kadrların idarəetmə sisteminin səmərəliliyinin artırılması və təkmilləşdirilməsi bu gün ən aktual problemdir. Bu problemlərin həlli xeyli dərəcədə idarəetmə qərarlarından asılıdır. İdarəetmə qərarı, müəssisənin vəzifə və məqsədlərinə nail olmağı təmin edən məqsədyönlü, bir-biri ilə əlaqəli, məntiqi ardıcıllıqdan ibarət olan idarə heyətinin ən vacib iş növüdür. İdarəetmə qərarı məqsədin seçilməsi vasitəsi, prosesi və nəticəsi, habelə ona nail olmaq üsuludur. İdarəetmə prosesinin metodologiyasında idarəetmə qərarının qəbulu

müxtəlifdir. Bunlar maliyyə resurslarının inkişafı, marketinqi, istehsalı, bölüşdürülməsi, eləcə də idarəetmə prosesində planlaşdırma, təşkiletmə, motivasiya, nəzarət, koordinasiya ilə bağlı qərarlar ola bilər. İdarəetmə qərarlarının qəbul edilməsi prosesi sistemli yanaşma metoduna əsaslanır ki, bu da bütün sistemin fəaliyyətini təkcə onun hissələrinin strukturunun və onlar arasındakı əlaqələrin təhlili əsasında deyil, həm də sistemə nüfuz etməklə başa düşməyə imkan verir. Müəssisənin mənfəəti, onun məhsul və ya xidmətlərinə tələbat, müəssisənin idarə edilməsi və fəaliyyətinin səmərəliliyi, kadrların motivasiyası və s. qəbul edilən idarəetmə qərarlarından asılıdır. Hər gün on minlərlə mütəxəssis və vəzifəli şəxs minlərlə müəssisə və təşkilatda idarəetmə qərarlarının formalaşdırılmasında iştirak edir. Bu qərarların əksəriyyəti yerli əhəmiyyətlidir, lakin bəziləri bütün ölkənin iqtisadiyyatına həlledici təsir göstərir. Ölkənin və onun istənilən vətəndaşının taleyi qəbul edilən qərarların keyfiyyətindən asılıdır. İdarəetmə səviyyəsi nə qədər yüksək olarsa, texniki-iqtisadi göstəricilərin, psixoloji, sosial və digər aspektlərin dəyişməsi ilə bağlı qəbul edilən və reallaşdırılan qərarların əhəmiyyəti bir o qədər böyük olur. Neft-kimya sənayesi həm mürəkkəb iri istehsal sistemləri, həm də açıq iqtisadi sistemlər hesab edilə bilər. Bu o deməkdir ki, onlara təsir edən amillər müxtəlifdir. Odur ki, həmin sektorda yüksək fəaliyyət və idarəetməyə nail olmaq məqsədilə bu amillərin təsirini təhlil etmək lazımdır. Beləliklə, neft-kimya sənayesində idarəetmə qərarları problemin həlli üçün tələblərə cavab verən və həmin sənaye müəssisələrinin məqsədlərinə çatmasına töhfə verən ən optimal variantın (təklif olunan alternativlərdən) seçilməsi prosesi kimi başa düşülməlidir. Eyni zamanda, həyata keçirilən idarəetmə qərarı ən etibarlı məlumatlara, qəbul edilən qərarlara güclü təsir göstərən bütün amillərin öyrənilməsinə, habelə mümkün nəticələrin gözlənilməsinə əsaslanmalıdır [7, s.69].

**Yeni çağırışlar dövründə Azərbaycanda neftkimya sənayesinin idarəetmə sisteminin təkmilləşdirilməsi yolları**

Müasir dövrdə Azərbaycanın neft-kimya sənayesinin inkişafının əsas xüsusiyyətlərindən biri sürətlə dəyişən bazar mühitində idarəetmə sistemi müvafiq idarəetmə qərarlarının vaxtında və keyfiyyətli qəbulunu təmin etməlidir. Neft-kimya sənayesi ölkəmizin güclü inkişaf potensialına malik olan əsas qeyri-neft sektoru sahələrindən biridir [8, s.193]. Effektiv kadr idarəetmə sisteminin yaradılması məqsədilə neft-kimya müəssisələri üçün strategiyanın formalaşdırılması məsələləri xüsusilə aktuallaşır. Neft-kimya sənayesində istehsal həcminin artması, təsərrüfat əlaqələrinin genişlənməsi şəraitində kadrların idarəetmə sistemi daha da mürəkkəbləşir. Belə şəraitdə həmin sənaye sahəsində idarəetmənin məqsəd və vəzifələri hər bir işçi kateqoriyası üçün onların yerinə yetirdiyi funksiyalara uyğun olaraq müəyyənləşdirilməlidir [9]. Neft-kimya sənayesi milli iqtisadiyyatın aparıcı sahələrindən biri kimi təkmilləşdirilmiş idarəetmə üsullarının və qabaqcıl istehsal texnologiyalarının tətbiqini tələb edir. Müəssisələrin idarə edilməsi üçün optimal təşkilati strukturun layihələndirilməsi, səmərəli istehsal sistemlərinin yeni resurslarından istifadə etməklə texnoloji proseslərin səviyyəsinin yüksəldilməsi, neft-kimya istehsalının idarə edilməsinin mütərəqqi üsullarının mənimsənilməsi həmin sənayenin rəqabət qabiliyyətinin təminatı baxımından önəmli şərtdir. Neft-kimya sənayesinin xüsusiyyətlərinə əsas istehsal proseslərinin fasiləsizliyi, çoxlu sayda ilkin kimyəvi maddələrin istifadəsi, ətraf mühitə və bilavasitə istehsalatda çalışan işçi heyətinə zərərli olması, məhsulların yüksək elmi tutumu və s. daxildir. Yeni çağırışlar şəraitində neft-kimya sənayesinin əsas xüsusiyyətlərindən onun idarəetmə sistemi ilə bağlıdır. Əgər idarəetmə sistemi düzgün qurularsa, bu həmin sənaye sahəsinin inkişafına müsbət istiqamətdə təsir göstərər. Odur ki, yeni çağırışlar şəraitində ölkədə neft-kimya sənayesinin inkişafı məqsədilə onun idarəetmə sisteminin təkmilləşdirilməsi aktual problemlərdəndir. Hazırda neft-kimya sənayesinin aktual problemlərindən biri resurslardan istifadənin optimallaşdırılmasına, tullantıların minimuma endirilməsinə, əməyə qənaətə yönəlmiş idarəetmə sisteminin formalaşdırılmasıdır ki, bu da resurs qənaətinin idarə edilməsi üçün təşkilati strukturların inkişafı strategiyasının hazırlanmasını tələb edir [10].

Hazırda artan rəqabət şəraitində idarəetmə strategiyası istənilən müəssisənin həyatının və

uğurunun əsasını təşkil edir. Müəssisə idarəetmə strategiyası kommersiya və istehsal fəaliyyətinin inkişafı üçün prioritetləri müəyyən edən uzunmüddətli plan kimi başa düşülür. Strategiya təşkilat üçün xüsusi və davamlı davranış xəttini və mövcud resurslar dəstindən istifadəni müəyyən edir. Neft-kimya müəssisələri bazarda aktiv inkişafı təmin etmək üçün rəqabətqabiliyyətlilik sahəsində effektiv həllər tələb edir. İdarəetmə bacarıqları idarəetmə fəaliyyətinin səmərəli şəkildə reallaşdırılması məqsədilə vacib olan komponentləri birləşdirən idarəetmə subyektinin əsas keyfiyyət xüsusiyyətidir. İdarəetmə bacarıqları sənayedə rəqabət üstünlükləri yaradır, kadrların qabiliyyətlərini formalaşdırır, inkişaf etdirir, əlaqələndirir və birləşdirir. Bu gün neft-kimya sənayesinin rəqabətqabiliyyətliliyinin təşkilati və iqtisadi təminatı mexanizminin formalaşdırılması çərçivəsində idarəetmə bacarıqlarından istifadə həmin sənaye sahəsinin inkişafında uğur amillərindəndir. Odur ki, neft-kimya sənayesində idarəetmə bacarıqlarının təkmilləşdirilməsi zəruridir. Neft-kimya sektorunda idarəetmə sisteminin təkmilləşdirilməsi onun rəqabət qabiliyyətliliyinin artırılmasında önəmli rol oynayır. Müəssisənin rəqabətqabiliyyətliliyi rəqabətli bazarda səmərəli iqtisadi fəaliyyətin və onun praktiki həyata keçirilməsinin mümkünlüyüdür. Bu kateqoriya müəssisənin həm istehsal etdiyi məhsulların konkret sosial ehtiyacların ödənilmə dərəcəsi, həm də istehsal fəaliyyətinin səmərəliliyi baxımından bazardakı rəqiblərinə müqavimət göstərmək qabiliyyətini ifadə edir. Məhsulların rəqabət qabiliyyəti onların bazar tələblərinə uyğunluğunu təmin edir. Başqa sözlə, məhsul iqtisadi, texniki və əməliyyat parametrləri toplusuna malik olmalıdır. Məhsulun rəqabət qabiliyyəti onun keyfiyyətindən, istifadəsinin faydalı təsirindən və qiymətindən asılıdır. Məhsulun keyfiyyəti, faydalı təsiri nə qədər yüksək olarsa və qiyməti nə qədər aşağı olarsa, onun reallaşdırılmasının real imkanları bir o qədər yüksək olar. Bu göstəricilərin digər malların oxşar göstəriciləri ilə müqayisəsi məhsulların rəqabət qabiliyyətinin səviyyəsi haqqında təsəvvür yaradır. Neft-kimya sektoruna daxil olan müəssisələrin rəqabət qabiliyyətinə nail olunması məqsədilə müəssisə rəhbərliyi vasitəsilə innovasiyaların tətbiqinə və inkişafına kömək edəcək şərait yaratmaq lazımdır [11].

Azərbaycanda həmin sahə müəssisələrinin rəqabət qabiliyyətinə nail olunması məqsədilə onları innovativ şəkildə inkişaf etdirmək lazımdır. Sənaye müəssisələrinin innovasiya strategiyalarının olması perspektivli cari və operativ idarəetmənin dəqiq qarşılıqlı əlaqəsini təmin edir. Hazırlanmış innovasiya strategiyalar sənaye müəssisələrinin hərtərəfli inkişafının uzunmüddətli innovasiya strategiyasının reallaşdırılması mexanizmini təmin edir. Bununla əlaqədar olaraq, innovasiyaların idarə edilməsi sisteminin bir tərəfdən innovasiya strategiyasının növü ilə sıx əlaqədə təhlil edilməsi, digər tərəfdən isə müəssisənin strukturu, texnologiyası, kadrları və digər parametrləri ilə təhlil edilməsi zəruridir. Yəni, müəssisənin bazarda hücum və ya müdafiə xarakterli davranış strategiyası ola bilər [12].

Son illər Azərbaycanda neft-kimya sektorunda aparılan islahatların əsas istiqamətlərindən biri onun idarəetmə sisteminin təkmilləşdirilməsidir. Bununla bağlı müxtəlif qanunvericilik aktları qəbul edilmişdir. Belə qanunvericilik aktlarından biri “Neft-kimya sənayesində idarəetmə mexanizmlərinin təkmilləşdirilməsi haqqında” ölkə prezidentinin sərəncamıdır. Həmin sərəncamın müddəalalrının icra edilməsi nəticəsində Azərbaycanın yeni neft strategiyasının uğurla reallaşdırılmasına nail olunmuş, Azərbaycanın enerji təhlükəsizliyinin təminatı istiqamətində önəmli işlər görülmüş, müasir tələblərə uyğun səmərəli idarəetmə sistemi formalaşdırılmışdır [13]. Məlumdur ki, neft-kimya sənayesinin inkişafı onun modernləşdirilməsi səviyyəsindən asılıdır. Həmin sənayeni modernləşdirmək üçün idarəetmə sisteminin özünü təkmilləşdirmək lazımdır. Neft-kimya sənayesinin modernləşdirilməsi mahiyyət etibarilə müasir avadanlıqların alınması və yeni texnologiyaların tətbiqi məqsədilə lisenziyaların alınması ilə bağlıdır. Modernləşdirilmiş müəssisənin idarəetmə sisteminə qoyulan əsas tələb struktur bölmələr arasında əlaqə və asılılığı müəyyənləşdirən sistemli yanaşmadır.

**Nəticə**

Neft-kimya sənayesinin inkişafı xeyli dərəcədə onun idarəetməsinin təşkilati strukturunun təkmilləşdirilməsindən asılıdır. İdarə-

etmənin təşkilati strukturunun təkmilləşdirilməsinin əsas istiqamətləri kimi bunları qeyd edə bilərik:

– müasir dövrün tələbləri baxımından idarəetmə qərarlarının qəbulunun mərkəzləşdirilməsinin rasional səviyyəsini təmin edə biləcək idarəetmə sistemi formalaşdırılmalıdır;

– idarəetmə sisteminin müxtəlif həlqələrinin səmərəli fəaliyyəti təmin olunmalı və neftkimya müəssisənin qarşısında duran hədəflərə uyğun şəkildə təkmilləşdiririci tədbirlər görülməlidir;

– neftkimya müəssisənin fəaliyyət strategiyası adekvat olan idarəetmə strukturunun yaradılması və təkmilləşdirilməsi xüsusi diqqət mərkəzində saxlanılmalıdır və s.

## ƏDƏBİYYAT SİYAHISI:

1. Кретова, А. В. теоретические взгляды на сущность и развитие управления/ А. В. Кретова// Менеджер. – 2019. – Т. 1, № 1(87). – С. 155-161
2. Тарасов, А. С. сущность механизма управления функционированием предприятий в современных условиях / А. С. Тарасов // Менеджер. – 2022. – № 4(102). – С. 137-143
3. Əliyev, Ş.T. Azərbaycanın sosial-iqtisadi inkişafında Sumqayıt şəhərinin strateji əhəmiyyəti/ Monoqrafiya. Sumqayıt, “Azəri” nəşriyyatı. 2019 - 368 s.
4. Шнюков, С. А. Методы оценки эффективности систем управления / С. А. Шнюков // . – 2022. – № 82-3. – С. 119-123
5. Шайлообекова, Н. Ш. Повышение эффективности управления в обществе / Н. Ш. Шайлообекова // . – 2018. – № 3(27). – С. 84-86
6. Əliyev, Ş.T. Azad iqtisadi zonaların inkişafının aktual aspektləri. Monoqrafiya. Sumqayıt. SDU-nun Redaksiya və nəşr işləri şöbəsi. 2022.- 422 s.
7. Андронова, И. В. Совершенствование системы диагностики эффективности управленческих решений на предприятиях нефтегазовой отрасли / И. В. Андронова, И. В. Осиновская, А. А. Х. Мамаева // Общество: политика, экономика, право. – 2019. – № 8(73). – С. 68-76
8. Əliyev, Ş.T. Azərbaycan iqisadiyyatı. Sumqayıt. SDU-nun Redaksiya və nəşr işləri şöbəsi, 2018.- 376 s.
9. Akın C.N. Sənaye müəssisələrində heyətin idarə edilməsi mexanizminin təkmilləşdirilməsi istiqamətləri. İqtisad üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın avtoreferatı. Bakı, 2016, 24 s.
10. Əliyev, Ş.T., Kərmili, A.S. Kimya və neftkimya müəssisələrində istehsalın diversifikasiyalaşdırılması problemləri və iqtisadi təhlükəsizlik aspektləri / Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyinə həsr olunmuş “İqtisadi təhlükəsizlik: mövcud vəziyyət və perspektivlər” Beynəlxalq Elmi Konfransın materialları (02-03 may 2018 il). Sumqayıt Dövlət Universiteti, 2018. - S.52-54.
11. Əliyev, Ş.T., Bayramov, R.D. Azərbaycanın kimya sənayesi müəssisələrinin iqtisadi təhlükəsizliyinin müasir aspektləri/ Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyinə həsr olunmuş “İqtisadi təhlükəsizlik: mövcud vəziyyət və perspektivlər” Beynəlxalq Elmi Konfransın materialları (02-03 may 2018 il). Sumqayıt Dövlət Universiteti, 2018. - S.27-29.
12. Mahmudova L.F. Azərbaycanda strateji innovasiya fəaliyyətinin investisiya-maliyyə təminatının aktual məsələləri. Audit № 4, Cild 26, 2019, s.24-37.
13. Neft-kimya sənayesində idarəetmə mexanizmlərinin təkmilləşdirilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. Bakı, 2 aprel 2010.

**Фаиг Ханоглан оглы КЕРИМЛИ**
Докторант кафедры «Экономика» Бакинского Государственного Университета AZ1148,
Азербайджанская Республика, Баку, ул. Академик Захид Халилов, 23.
E-mail: karimli.faig@gmail.com

## СТРАТЕГИЧЕСКИЕ АСПЕКТЫ СОВЕРШЕНСТВОВАНИЯ СИСТЕМЫ УПРАВЛЕНИЯ В НЕФТЕХИМИЧЕСКОЙ ПРОМЫШЛЕННОСТИ АЗЕРБАЙДЖАНА

**Резюме**

*Целью исследования* является определение стратегических аспектов совершенствования системы управления в нефтехимической промышленности Азербайджана. С этой целью рассмотрены существующие положения системы управления и исследованы возможности развития нефтехимической промышленности. Раскрыта сущность проблем, замедляющих повышение эффективности системы управления в нефтехимической промышленности страны. Особо обращено внимание на возможности нефтехимической промышленности, в создании дополнительных источников добавленной стоимости. Подготовлен ряд рекомендаций и предложений по регулированию и совершенствованию системы управления в нефтехимической промышленности Азербайджана с учетом современных вызовов.

*Методы исследования* – состоят из ряда научных методов, в том числе, синтеза, анализа и обобщения. Кроме того, рассмотрены научные подходы исследователей, которые изучали проблемы совершенствования системы управления в промышленности.

*Результаты исследования* - объясняются наличием возможностей эффективного использования материалов исследования в процессах подготовки целевых программ и стратегий по совершенствованию системы управления в нефтехимической промышленности.

**Ключевые слова:** Азербайджан, нефтехимическая промышленности, управление, система управления, механизмы управления, потенциал развития нефтехимической промышленности.

**Faig Khanoglan KARİMLİ,**
Doctoral student of the Department of “Economics" of Baku State University of AZ1148,
Azerbaijan Republic, Baku, st. Academician Zakhid Khalilov, 23.
E-mail: karimli.faig@gmail.com

## STRATEGIC ASPECTS OF IMPROVING THE MANAGEMENT SYSTEM IN THE PETROCHEMICAL INDUSTRY OF AZERBAIJAN

**Summary**

*The purpose of the research* is to determine the strategic aspects of improving the management system in the petrochemical industry of Azerbaijan. The existing provisions of the control system are considered and the possibilities for the development of the petrochemical industry are investigated for this purpose. Disclosed are the essences of problems that slow down the increase in the efficiency of the control system in the petrochemical industry of the country. Particular attention is paid to the capabilities of the petrochemical industry in creating additional sources of added value. A number of recommendations and proposals to regulate and improve the management system in the petrochemical industry of Azerbaijan, taking into account modern challenges are given.

*Research methods* – consist of a number of scientific methods, including synthesis, analysis and generalization. In addition, the scientific approaches of researchers who studied the problems of improving the management system in industry were considered.

*The results of the research* are explained by the availability of opportunities for effective use of research materials in the processes of preparing targeted programs and strategies for improving the management system in the petrochemical industry.

**Key words:** Azerbaijan, petrochemical industry, management, management system, management mechanisms, potential of petrochemical industry development.

**Daxil olub:** 12.02.2023